K.Ş. Aydın m. çatdırılsın

SOCAR20290002163056004 6X03079

03 Iyul 2020

azəriqaz

Azəriqaz
Y.Səfərov küç. 23
AZ1025, Azərbaycan, Bakı
Tel.: (99412) 521 22 21
Faks: (99412) 521 22 24
E-mail: info@azeriqaz.az
www.azeriqaz.az

**Azərbaycan Milli Elmlər Akademiyası**
**Fəlsəfə İnstitutunun direktoru**
**Professor İ.R.Məmmədzadəyə**

Monoqrafiyaya rəy bildirilməsi barədə

**Hörmətli İlham müəllim,**

"Azərbaycanın qazlaşdırılması və qaz təsərrüfatının istismarı (1955-1970-ci illər)" adlı monoqrafiyaya verilmiş rəylə bağlı 29.06.2020-ci il tarixli 51/01-80 nömrəli məktubunuza "Azəriqaz" İB-də baxılmışdır.

"Azərbaycanın qazlaşdırılması və qaz təsərrüfatının istismarı" (1955-1970-ci illər) adlı monoqrafiyaya "Azəriqaz" İB tərəfindən 17 iyun 2020-ci il tarixli, SOCAR20290002163056004 6X03079 nömrəli məktubla verilmiş rəyə monoqrafiyanın müəllifi olan A.Əlizadə tərəfindən yazılı və video formatlarda münasibət bildirilmişdir. Məlum olduğu kimi, Azərbaycan Respublikasında iyun ayının 20-i qaz təsərrüfatı işçilərinin peşə bayramı günü kimi qeyd olunması barədə Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 12 iyun 2006-cı il tarixli, 1494 nömrəli sərəncamı olmuşdur (Sərəncamın mətni əlavə olunur). Sərəncamın preambulasında qeyd olunduğu kimi bu sərəncam Azərbaycan Respublikasında qaz təsərrüfatının yaradılmasının 70 illiyi ilə əlaqədar verilmişdir. 20 iyun 2006-cı il tarixdə Azərbaycan Respublikası Baş nazirinin birinci müavini, Sənaye və Energetika Nazirliyinin, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının, Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin, "Azəriqaz" QSC-nin və digər dövlət qurumlarının rəhbər şəxslərinin iştirakı ilə qaz təsərrüatının yaranmasının 70 illiyi yubileyi təntənəli şəkildə qeyd olunmuş, bir sıra şəxslər dövlət təltiflərinə layiq görülmüş, bu barədə kütləvi informasiya vasitələrində və internet resurslarında kifayyət qədər məlumatlar əks olunmuşdur. "Azəriqaz" İB-nin rəyində qeyd olunduğu kimi, 1936-cı ildə "AzQaz" trestinin təşkil edilməsi ilə, tabeçiliyindən asılı olmayaraq həmin dövrdən mərkəzləşdirilmiş qaydada qaz təsərrüfatının formalaşmasına, təbii qaz təchizatı şəbəkəsinin qurulmasına və yaşayış fondunun qazlaşdırılmasına başlanılmışdır. Bu işlər, əhatə dairəsindən və tabeçiliyindən asılı olmayaraq, vahid mərkəzdən idarə olunmağa başlanılmışdır. Burada "AzQaz" trestinin, "Baş Qaz" İdarəsinin və ya digər qurumun yaranmasından yox, qaz təsərrüfatının ölkə iqtisadiyyatının bir sahəsi kimi yaranmasından söhbət gedir. Əlbətdə sonrakı dövrlərdə, qaz təsərrüfatının idarəetmə strukturu dəfələrlə təkmilləşdirilmiş və hal-hazırda ölkənin qaz təsərrüfatını idarə edən "Azəriqaz" İstehsalat Birliyi Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin struktur bölməsi kimi öz fəaliyyətini uğurla davam etdirir.

İcraçı:
SOCAR:20001300 - Azəriqaz IB 20008106 - İdarəetmə aparatı 20014515 - Yeni qazlaşma və inkişaf şöbəsi, rəis müavini, İlham Mehbalıyev, Tel(Daxili: 29-142)

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
FƏLSƏFƏ İNSTİTUTUNDAN
DAXIL OLUNMUŞDUR
№ 40
«01» 09 2020
Şöbə müdiri

Bir daha qeyd olunmalıdır ki, arxiv materiallardan istifadə olunmuş bu monoqrafiya məzmun və mahiyyətinə görə müsbət qiymətləndirilir. Monoqrafiyanın AMEA Fəlsəfə İnstitutunun nəşri kimi oxuculara təqdim olunması daha məqsədəuyğun olardı. Məktubunuzda qeyd olunan digər təkliflərə gələcəkdə baxıla bilər.

Qoşma: sərəncamın mətni – 1 vərəq.

**Hörmətlə,**

**Baş direktor**
**Ruslan Əliyev**